# Fermerlər məhsuldarlıqdan razıdırlar

***Son illər ölkəmizin hər yerində olduğu kimi Qəbələdə də aqrar sektorun inkişafına ciddi diqqət yetirilir. Əvvəllər burada əsasən heyvandarlığın və əkinçiliyin inkişaf etməsinə baxmayaraq, bu gün rayonun iqtisadiyyatında qida sənayesi müəssisələri və meyvəçilik də mühüm rol oynamağa başlayıb. Eyni zamanda bostan məhsulları, tərəvəz, üzüm və kartof əkininə də üstünlük verilir.***

Rayonumuzda keçən ilin payızında bu ilin məhsulu üçün 21 min 47 hektar sahədə taxıl əkilmişdir.

Taxıl yığımını qısa müddətdə başa çatdırmaq üçün biçinə rayonun öz kombaynları ilə yanaşı, aran rayonlarda biçini başa vuran kombaynların da bir hissəsi cəlb olunmuşdu.

Nəticədə biçin vaxtında, optimal müddətdə başa çatdı. Taxılçılarımız 21.047 hektar sahənin hər hektarından 32,1 sentner məhsul götürmüş, ümumilikdə 67.588 ton taxıl istehsal etmişlər ki, bunun da 52.851 tonu buğda, 14.737 tonu isə arpadır.

Rayonumuzda 4155,7 hektarda yazlıq bitkilər əkilib. Bunun 101 hektarı buğda, 353 hektarı vələmir, 1 hektarı çəltik, 604 hektarı dənlik qarğıdalı, 320 hektarı siloluq qarğıdalı, 425 hektarı yonca, 70 hektarı tütün, 601 hektarı kartofdur. Bunlardan əlavə, kəndli fermerlərimiz tərəfindən tərəvəz, bostan bitkiləri, şəkər çuğunduru və s. birillik bitkilər də becərilmişdir.

Aqrar sahədə çalışan fermerlərimiz mütərəqqi metodlardan istifadə etməklə, istehsalı əkin sahələrinin genişləndirilməsi ilə yox, məhsuldarlığın yüksəldilməsi hesabına artırmağa səy göstərirlər.

Toxumçuluğun inkişaf etdirilməsi də daim diqqət mərkəzində saxlanılır. Ötən il cari ilin toxum fondu üçün 18 hektarda arpa, 280 hektarda yeni toxumluq buğda növləri əkilib. Toxumçuluq təsərrüfatlarında da artıq biçin yekunlaşıb. Orta məhsuldarlıq 35-38 sentner olub. Bu isə fermerləri yüksək reproduksiyalı toxumla təmin etməyə əsas verir.

**“Qəbələ”**

# İstehsal prosesi ilə tanış olublar

***“Gilan Holdinq” jurnalistlər üçün ölkəmizin əsas turizm məkanlarından biri olan Qəbələyə infotur təşkil edib.***

***Rayonun Savalan kəndindəki üzüm emalı və şərab istehsalı zavodu ilə tanış olan jurnalistlər orada “Savalan” adı ilə istehsal olunan məhsulların keyfiyyəti, saxlanılma şəraiti və şərabların xarici bazara ixracı barədə məlumat əldə ediblər.***



Qonaqlara zavodun 343 hektar sahədə üzüm bağı olduğu bildirilib. Bunun 298 hektarını texniki, 45 hektarını isə süfrə növündən ibarət olan üzüm bağlarının təşkil etdiyi qeyd olunub.

Şirkətin Qəbələ rayonundakı üzüm bağlarında 21 texniki və 14 süfrə üzüm sortları yetişdirilir. Hazırda zavodda “Savalan” brendi ilə 16 çeşiddə şərab istehsal olunur və onların əksəriyyəti xarici ölkələrə ixrac edilir. Zavodun məhsulları bir neçə beynəlxalq şərab və dequstasiya sərgilərində qızıl medal qazanıb.

Daha sonra jurnalistlərin “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksinə, Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, Qəbələ Tarix-Diyarşünaslıq Muzeyinə, stend və ox atıcılığı kompleksinə səfərləri təşkil edilib.

İnfoturda iştirak edən 15-ə yaxın KİV əməkdaşına “Gilan Holdinq”in Qəbələ rayonundakı otel və istirahət mərkəzləri, istehsal müəssisələri barədə ətraflı məlumat verilib. Tur iştirakçıları Heydər Əliyev Fondunun təşkilatçılığı, “Gilan Holdinq”in dəstəyi ilə Qəbələdə keçirilən IX Beynəlxalq Musiqi Festivalının konsertlərinə tamaşa ediblər. Jurnalistlərə “Gilan Holdinq”in hədiyyələri təqdim olunub.

**“Qəbələ”**

# Tütünçülüyə diqqət artıb

***Qəbələdə aqrar sektorun inkişafı istiqamətində çox böyük işlər görülür. Hazırda rayonda kənd təsərrüfatı sənayeləşir, böyük emal müəssisələri fəaliyyət göstərir, ixrac potensialının artırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir və uğurlu nəticələr əldə edilir. Kənd təssərüfatının gəlirli sahələri inkişaf etdirilir, yeni iş yerləri açılır, əhalinin məşğulluğu təmin olunur.***



Bu il ənənəvi kənd təsərrüfatı sahəsi hesab olunan tütünçülüyə diqqət artırılıb. Rayonun Böyük Əmili, Zirik və Kürd kəndləri ərazilərində yüksək məhsuldarlıq potensialı olan İmonum və Belli növlü tütün şitilləri əkilib. Artıq sahələrdən məhsul yığımına başlanılıb. Ümumilikdə 70 hektara yaxın ərazidə yetişdirilən tütünün hər hektarından 5-6 ton quru tütün məhsulu gözlənilir. Yığım prosesinin isə oktyabr ayının sonlarına qədər başa çatdırılması nəzərdə tutulub. Hələ sovet hakimiyyəti illərində Qəbələ torpağı tütünçülükdə məhsuldarlığı ilə seçilib. Ona görə də tütünçülərimiz respublikada ən yüksək məhsuldarlığın əldə olunmasını hədəf seçib. Belə insanlardan biri Bədir Alıcanovdur. Onun dediklərinə görə hava şəraiti tütünün becərilməsi və yığımı üçün əlverişli olduğundan, tütün ustaları bol məhsul əldə edəcəklərinə inanırlar.

Təcrübəli tütünçü Tənzilə Alışova da vaxtilə rayonda kütləvi qaydada tütün becərildiyini və yüksək məhsuldarlığı ilə diqqət çəkdiyini bildirir. Bu il yaxşı nəticə əldə ediləcəyinə əmin olan Tənzilə Alışova gələcəkdə kənd təsərrüfatının bu sahəsinin genişlənəcəyinə inanır. O, əkilən sortların məhsuldar olduğunu və ətri ilə seçildiyini qeyd edir. Əkilmiş sahələrin hər hektarından 35 ton yaş tütün gözlənildiyini, bunun da 5 ton quru məhsul olduğunu deyir.

Zirik kənd sakini Şövkət Nəzirova isə əvvəllər tütünçülük rayonu kimi tanınan Qəbələdə 1986-cı ildə 2040 hektar sahədə tütün yetişdirildiyini və 7923 ton məhsul istehsal edildiyini bildirir.

Rayon kənd təsərrüfatı idarəsinin mütəxəssisi Elimdar Şərifov sonuncu dəfə 2006-cı ildə Qəbələdə cəmi 22 hektar sahədə tütün əkini aparıldığını və 56 ton məhsul istehsal edildiyini, sonralar bu ənənəvi sahənin tamamilə unudulduğunu qeyd edir. Lakin fermerlərin bu sahədə böyük təcrübəsi olduğuna əminliyini bildirən mütəxəssis yaxın illərdə tütünçülüyün ən inkişaf etmiş gəlirli sahəyə çevriləcəyinə inanır.

Qəbələ rayonu üçün ənənəvi sahə olan tütünçülüyə qayıdış Böyük Əmili, Zirik və Kürd kəndləri sakinlərinin sevincinə səbəb olub. Onlar daha iş axtarmırlar. Çünki iş artıq onların qapısındadır.

**“Qəbələ”**

# Həyata keçirilən tədbirlər kənd təsərrüfatı kooperasiyasının formalaşmasına şərait yaradır

Kənd təsərrüfatı kooperativlərinin fəaliyyəti üçün ilkin hüquqi baza mövcud olsa da, aqrar sahədə kooperasiya zəif inkişaf edib. Fermerlərin fərdiyyətçiliyə üstünlük verməsi, kooperasiya hərəkatı üçün istehsalçıların təşəbbüskarlığ göstərməməsi, iqtisadi mexanizmlərin birgə təsərrüfatçılıq formasını yetərincə stimullaşdırmaması və bu sahədə xüsusi pilot layihələrin həyata keçirilməməsi, torpaqların xırda hissələrə bölünərək pərakəndə yerləşməsi, kooperasiya barədə biliklərin azlığı və onun üstünlüklərinin geniş təbliğ olunmaması, aqrar informasiya sisteminin zəif qurulması kənd təsərrüfatı kooperativlərinin inkişafını ləngidib.

Bu barədə Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən “Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı”nda qeyd olunub.

Dövlət Proqramında bildirilir ki, xırda təsərrüfatların üstünlük təşkil etməsi aqrar sahənin əsas problemlərindən biridir. Eyni zamanda, kənd təsərrüfatı məhsulları istehsalının əsas hissəsi hələ də xırda təsərrüfatların payına düşür. Kiçik təsərrüfatların birləşməsi həm investorlar üçün cəlbedici ola, həm də istehsal və emal müəssisələrinin təşkili üçün imkan yarada bilər. Bu baxımdan həyata keçirilən bir sıra tədbirlər kənd təsərrüfatı kooperasiyasının formalaşmasına müəyyən şərait yaradır.

Proqramın məqsədi kənd təsərrüfatı məhsulları istehsalçılarının birgə təsərrüfatçılıq fəaliyyətini təşviq etmək, könüllülük əsasında kənd təsərrüfatı kooperativlərinin təşkilinə əlverişli şərait yaratmaq, kooperativlərin dayanıqlı fəaliyyətini təmin etmək, həmçinin aqrar sahədə kooperasiyanın formalaşmasına və inkişafına dəstək verməkdir.

Kənd təsərrüfatı kooperasiyasının inkişafı sahəsində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün kənd təsərrüfatı kooperativlərinin və onların ittifaqlarının (assosiasiyalarının) yaradılmasının və inkişafının dəstəklənməsi, kooperativlərin yaradılması və inkişafı üçün əlverişli sosial-iqtisadi və hüquqi mühitin formalaşdırılması, kənd təsərrüfatı istehsalçılarının kooperativlərdə birləşməsinin stimullaşdırılması ilə bağlı tədbirlər görülməsi, kooperativlərdən hazır məhsulun qısa müddətdə tədarükünü, daxili və xarici bazara çıxışını təmin edən mexanizmin yaradılması, kənd təsərrüfatı kooperativlərinin istehsal bazasının modernləşdirilməsi, kooperativlərin istehsal vasitələrinə tələbatının güzəştli lizinq şərtləri hesabına təmin edilməsi, kooperativ bazarların fəaliyyəti üçün şərait yaradılması və sair tədbirlər nəzərdə tutulur.

Dövlət Proqramının icrası kooperasiya hərəkatının geniş yayılmasına, kənd təsərrüfatının inkişafı istiqamətində qarşıya qoyulmuş məqsədlərə nail olmağa imkan yaradacaq. Proqram çərçivəsində görülən işlər kənd yerlərində birgə təsərrüfatçılıq formalarının inkişafına təkan verməklə yanaşı, kooperativ üzvlərinin gəlirlərinin artmasına, həmin təsərrüfatlara investisiyaların cəlb edilməsinə gətirib çıxaracaq. Bu da kəndlərdə yaşayan əhalinin sosial rifah halının yüksəlməsinə, məşğulluq səviyyəsinin artmasına səbəb olacaq.